# Mehdi (ə.s)-ın qeybi dövründə cəmiyyətdə şiddət, anarxiya və PKK terroru ortaya çıxacaq, xalq dindən uzaqlaşacaq

Hz. Mehdi (ə.s)-ın insanların arasında görünmədiyi bir qeyb dövrü olacaq. Bu dövrdə insanlar hz. Mehdi (ə.s)-ın itdiyini, hətta bəziləri öldüyünü belə düşünəcəklər. Bu vəziyyət Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdə belə bildirilir:

**"ALİ- MƏHƏMMƏDİN QAİMİNİN (HZ. MEHDİNİN) İKİ QEYBƏTİ (HƏBS DÖVRÜ) VARDIR. BİRİ DİGƏRİNDƏN DAHA UZUNDUR ..."**

*(Şeyx Məhəmməd ibn İbrahim Numani, Qeybəti-Numanı səh. 199)*

---

*Bu qiyamın sahibinin (hz. Mehdinin) iki qeybəti vardır.* ***BİR QEYBƏTİ*** *(həbsdə qaldığı dövr)* ***O qədər uzanacaq ki,*** *belə deyəcəklər:* ***"Öldü."*** *Bəziləri deyəcək ki:* ***"Öldürüldü."*** *Bəziləri deyəcək ki:* ***" Getdi ... "***

*(Şeyx Məhəmməd ibn İbrahim Numani, Qeybəti-Numanı səh. 198)*

**... SONUNDA MƏNİM ÖVLADLARIMDAN BİRİ (HZ. MEHDİ (Ə.S)) ADAMLARIN GÖZLƏRİNDƏN QEYBƏ ÇƏKİLƏCƏK. XALQ ONUN İTDİYİNİ, ÖLDÜRÜLDÜYÜNÜ VƏ YA ÖLDÜYÜNÜ SÖYLƏYƏCƏK. SONRA FİTNƏ DOĞULACAQ VƏ BƏLALAR GƏLƏCƏK, MİLLİYYƏTÇİLİK QATI DİNÇİLİYİ DİRİLƏCƏK, XALQ DİNİNDƏ YOLUNU İTİRƏCƏK.**

(Şeyx Məhəmməd ibn İbrahimi Numani, Qeybəti-i Numani, səh. 163)

Yuxarıdakı hədisdə isə Peyğəmbərimiz (s.ə.v); **"..SONRA FİTNƏ DOĞULACAQ VƏ BƏLALAR GƏLƏCƏK, MİLLİYYƏTÇİLİK QATI DİNÇİLİYİ DİRİLƏCƏK, XALQ DİNİNDƏ YOLUNU İTİRƏCƏK."** Ifadəsiylə, hicri 1400 (1979-1980)-cı illərdə cəmiyyətdə böyük qarışıqlıq və fitnələrin baş verəcəyi, insanların din əxlaqından uzaqlaşıb marksist, kommunist, ateist və darvinist görüşlərə doğru azdığı bir dövrə diqqət çəkir. Həqiqətən də cəmiyyətdə "80-cı illər" olaraq adlandırılan, xüsusilə, Türkiyədə anarxiya, terror, qarışıqlıq və narahatlığın son dərəcə inkişaf etdiyi, xalqın can və mal təhlükəsizliyinin, rahatlığının qalmadığı, insanların İslam dinindən uzaqlaşdığı bir dövrə girilmişdir. Xüsusilə, PKK terroru, Türk cəmiyyətində kürd-türk ayrı-seçkiliyi istiqamətində böyük bir

fitnə mövzusu ortaya ataraq cəmiyyət içində milliyyətçilik ruhunun doğulmasına səbəb olmuşdur. Xalqı, İslam dininin sülh, sevgi dolu, dinc ruhundan uzaqlaşdırıb; kommunist, marksist və darvinist bir görüşə çəkmişdir. Ancaq hz. Mehdi (ə.s)-ın zühur etməsi ilə inşaAllah bu batil ideologiyalar, fikirlər yerlə bir olacaq və Allah inancı bütün sürəti ilə dünyada yayılacaq.

https://www.harunyahya.info/az/meqaleler/mehdi-es-in-qeybi-dovrunde-cemiyyetde-siddet-anarxiya-ve-pkk-terroru-ortaya-cixacaq-xalq-dinden-uzaq